

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 55 (23.467)

*20 mart 2020-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Dövlətimizin başçısı xalqımıza cansağlığı, xoşbəxtlik arzulayaraq Novruz bayramının xalqın milli bayramı, milli sərvəti olduğunu bildirmiş, əsrlərboyu bu gözəl bayramın qeyd edildiyini vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanda aparılan islahatların, demək olar ki, bütün sahələri əhatə etdiyini, bu islahatların 2019-cu ildə iqtisadi sahədə böyük dəyişikliklərə səbəb olduğunu, məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsaitin daxil edildiyini və bu vəsaitin son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildiyini bildirib. Qeyd olunub ki, ötən il Azərbaycanın 4,2 milyon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırıb, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırılıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. 2020-ci ilin ilk iki ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.



## Culfa şəhərində yanacaqdoldurma məntəqəsi istifadəyə verilib




***Martın 19-da Culfa şəhərində yeni yanacaqdoldurma məntəqəsi istifadəyə verilmişdir.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov çıxış edərək bildirib ki, muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri davamlı xarakter alıb. Digər bölgələrimiz kimi Culfa rayonuna da bu quruculuq işlərindən pay düşüb. Görülən işlərin nəticəsidir ki, rayonun kənd yaşayış məntəqələri ilə yanaşı, Culfa şəhəri də xeyli gözəlləşib, mühüm infrastruktur layihələri həyata keçirilib. Yeni istifadəyə verilən yanacaqdoldurma məntəqəsi də görülən işlərin davamı olmaqla bərabər, həm də şəhərin abadlığına, yeni iş yerlərinin yaradılmasına töhfədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov işçilərə uğurlar arzulayıb, yaradılan şəraitlə tanış olub.



Culfa Rayon İcra Hakmiyyətinin başçısı Siyam Hacıyev yaradılmış şəraitə görə sakinlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Yaradılan şəraitlə tanışlıq zamanı məlumat verilib ki, yanacaqdoldurma məntəqəsinin ümumi ərazisi 7200 kvadratmetrdir. Burada iki inzibati bina, mağaza və kafe yerləşir. Ərazidə 1-i təbii qaz olmaqla, 5 yanacaq çəni və su hovuzu vardır. Məntəqədə yanğın təhlükəsizliyi tədbirləri görülüb, ildırımötürücü, videonəzarət sistemi quraşdırılıb, 1 hektar meyvə bağı salınıb.

**"Şərq qapısı"**

## Dövlət proqramı uğurla icra olunur

*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ötən ildə də uğurla davam etdirilib.*

İlin əvvəlində muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb və boş iş yerləri toplanılıb. Müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə 127-si dövlət, 99-u özəl olmaqla, ümumilikdə, 226 müəssisədə sorğular keçirilib. Sorğuların nəticələrinə əsasən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə-Tədris Mərkəzində təşkil edilən peşə kurslarına 13-ü sağlamlıq imkanları məhdud şəxs olmaqla, ümumilikdə, 402 nəfər cəlb edilib.

Həyata keçirilən aktiv məşğulluq tədbirləri nəticəsində 2019-cu il ərzində 4139 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub ki, onlardan 3040-nı məşğulluq orqanları tərəfindən işə düzəldilənlər təşkil edir. Müvafiq dövrdə 378 işaxtaran müvəqqəti və mövsümi işlərə göndərilib, 241 nəfər sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilib ki, onun da 32-ni sağlamlıq imkanları məhdud şəxs təşkil edib. Eyni zamanda 2019-cu ildə keçirilən əmək yarmarkalarında 521 nəfər işlə təmin olunub. Bununla yanaşı, hərbi xidmətdən yeni tərxis edilən şəxslərin məşğulluğunun təmin edilməsi nəticəsində 22 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilib.

Kənd xidmət mərkəzlərinin kadr təminatı ilə bağlı verilmiş tapşırıqların icrasına uyğun olaraq muxtar respublikanın bütün rayonlarında kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində monitorinqlər aparılıb, xidmət mərkəzlərində mövcud olan vakansiyalar üzrə çalışmaq istəyən şəxslər müəyyənləşdirilərək onların müvafiq peşə kurslarına cəlb olunması istiqamətində işlər davam etdirilib. Ötən il xidmət mərkəzlərində vakant yerlər üzrə 24 bərbər, 24 bərbər-manikürçü və 4 dərzi olmaqla, ümumilikdə, 52 nəfər işlə təmin olunub. Həmçinin milli və xalq tətbiqi sənət növləri üzrə peşə kurslarının təşkili məqsədilə Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində daşduz üzərində oyma və xalçaçı kursları təşkil edilib və kurslara, ümumilikdə, 18 nəfər cəlb olunub.

Sözügedən dövrdə, həmçinin ailə üzvlərinin birgə əməyinə əsaslanan təsərrüfat növlərinin formalaşması istiqamətində atılan addımlar ailə təsərrüfatlarının sayının artmasına imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları" ili elan olunması müxtəlif təsərrüfat sahələrində çalışanlar üçün geniş imkanlar yaradıb. Bu istiqamətdə verilmiş tapşırıqların icrasına uyğun olaraq ötən il sosial qayğıya ehtiyacı olan 140 aztəminatlı ailənin fərdi təsərrüfatının inkişaf etdirilməsinə və özünüməşğulluğunun təmin olunmasına köməklik göstərilib. Həmçinin "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü haqqıödənilən ictimai işin təşkili üçün aparılmış təhlillərin nəticələrinə uyğun olaraq 5 xalçaçı müəyyənləşdirilib və ictimai işə cəlb edilib. Onlara xalça toxunması üçün müvafiq material və avadanlıqlar təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud qadınlarla bağlanmış müqavilələrə əsasən toxunmuş 3000 cüt yun corab və 400 ədəd yun şərf haqqı ödənilməklə təhvil alınaraq hərbi hissələrə təqdim olunub.

Ötən il ərzində qeyri-formal məşğulluğun qarşısının alınması da diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanmasına nəzarət üçün monitorinqlər aparılıb. Nəticədə, 355 sahibkarlıq obyektində əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən 620 işçi aşkar edilib. Əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün işəgötürənlərə xəbərdarlıq olunub.

Dövlət proqramının icrası istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

***Ətraf mühitin mühafizəsi istiqamətində qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 10 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür.***

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında fevral ayı ərzində Araz və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxından" hər birindən 8 su nümunəsi olmaqla, ümumilikdə, 24 su nümunəsi götürülmüş və 360 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Hesabat dövründə Darıdağ Arsenli Su Müalicəxanasının ətrafındakı yamaclarda 5,5 hektar sahədə həmərsin, yemişan, badamça, alça toxumları ilə əkin işləri aparılmış, Naxçıvan-Şahbuz avtomobil yolunun sol kənarı, Uzunoba Dövlət Meşəsi ərazisində 2 hektar sahədə təmizləmə işləri görülmüş, ərazidə 1623 qovaq və iydə çiliyi, 650 göyrüş, alça, qarağac tingləri və 70 qızılgül kolu ilə əkin aparılmışdır.

Muxtar respublikanın kənd təsərrüfatı əkinləri üçün yararsız torpaq sahələrində, həmçinin maili yamac və dağətəyi zonalarda 2020-ci ilin yaz əkin mövsümündə əkin-bərpa tədbirlərinin həyata keçirilməsi məqsədilə ərazilərə baxış keçirilmiş və sxem-planlar tərtib olunmuşdur.

Naxçıvan-Çalxanqala avtomobil yolunun sağ kənarında 2 hektar, Əshabi-Kəhf ziyarətgahına gedən yolun və Naxçıvan-Şahbuz avtomobil yolunun sol kənarlarının, hər birində 2 hektar, həmçinin Uzunoba Dövlət Meşəsi ərazisində 2 hektar sahədə texnika vasitəsilə torpaq hazırlığı işləri aparılmış, su arxları çəkilmişdir.

Hesabat ayında Kəngərli rayonu ərazisində yerləşən püstə bağında, Uzunoba Su Anbarının yuxarı ətrafında salınmış yeni meyvə və üzüm bağlarında, Əshabi-Kəhf ziyarətgahına gedən yolun sol tərəfindəki meyvə bağında biotexniki tədbirlər keçirilmişdir. Bu işlər təbiət ərazilərində davam etdiriləcəkdir.

Qeyd olunan dövrdə kameral və ümumi xarakterli işlər çərçivəsində geoloji axtarış və kəşfiyyat işləri də davam etdirilmişdir. Naxçıvan şəhərində inşa ediləcək "Asan xidmət" Mərkəzi və Şahbuz şəhərində inşa ediləcək yaşayış binası sahələrində buruq qazma işləri yerinə yetirilmişdir. Toydaş sahəsi üzrə 2014-2019-cu illər ərzində yerinə yetirilmiş çöl işlərinin ilkin çöl geoloji sənədləri kameral şəraitdə hərtərəfli araşdırılmış, yekun hesabat hazırlanaraq elmi-texniki şurada müzakirə olunmaq üçün nazirliyə təqdim edilmişdir.

Ekologiya könüllülərinin Ordubad Dövlət Təbiət Yasaqlığı ərazisinə yürüşü təşkil edilmiş, burada nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bezoar dağ keçiləri, muflonlar və digər heyvan növlərini müşahidə etmiş, onlara bu növlər haqqında ətraflı məlumat verilmişdir. Bununla yanaşı, hamiliyə verilmiş ixtisasların tələbələrinin və könüllülərin iştirakı ilə hidroloji məlumatların alınması və sistemləşdirilməsinə dair seminar-məşğələ keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

***Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan digər sahələrdə olduğu kimi, elm sahəsində də həmişə öz nailiyyətləri ilə seçilmiş, dünya elminə töhfələri ilə diqqəti cəlb etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyət göstərdiyi dövrlərdə Naxçıvan Muxtar Respublikasında elm və təhsil sahəsində də davamlı inkişaf və dirçəlişə nail olunmuşdur.***



# Naxçıvanda elmin inkişafı müstəqilliyin bəhrəsidir

Ulu öndər Naxçıvanda elmin inkişafı strategiyasını mühüm mövqedən müəyyənləşdirərkən demişdir: ***“...Vaxtilə Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yarananda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir”.*** Bu səbəbdən də görkəmli dövlət xadimi Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında 2002-ci il 2 avqust tarixli Fərman imzalamış, bölmənin yaradılması və inkişafına ardıcıl qayğı göstərmişdir. Bu müdrik siyasət təkcə elmi inkişaf etdirmək məqsədi daşımamış, həm də xüsusi geostrateji əhəmiyyətə malik olan Naxçıvan Muxtar Respublikasının hərtərəfli öyrənilməsini başlıca zərurətə çevirmişdir. Elm və təhsilin inkişafına prioritet sahə kimi xüsusi diqqət göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan... Naxçıvanın tarixinin hələ tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir”.***



Məhz bu müdrik fikirlər Naxçıvanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının, təbii sərvətlərinin, flora və faunasının, yeraltı və yerüstü təbii ehtiyatlarının öyrənilməsini ciddi vəzifəyə, elm sahəsini müdafiə qüdrətinə malik bir ordunun mövcudluğu qədər xüsusi əhəmiyyət kəsb edən mühüm amillərdən birinə çevirmişdir.

İftixarla demək olar ki, ulu öndərimiz Heydər Əliyevin yadigarı olan, dövlət başçısının yuxarıdakı tövsiyə və tapşırıqlarını əsas götürən AMEA Naxçıvan Bölməsi diyarımızda elmin baş qərargahı rolunda çıxış etməklə digər elm və təhsil müəssisələri ilə birlikdə elmi inkişafa yeni vüsət vermiş, bu isə, öz növbəsində, müxtəlif sahələrdə elmi məktəblərin formalaşmasına gətirib çıxarmışdır.

Naxçıvandakı elmi məktəblər sırasında tarixşünaslıq və ədəbiyyatşünaslıq sahələrinin inkişafı xüsusilə diqqəti cəlb edir. Aparılan tədqiqatlar, çap etdirilən çoxsaylı elmi əsərlər Naxçıvan tarixşünaslıq məktəbinin yaranmasını şərtləndirmişdir. Ciddi elmi tədqiqatlar tarixşünaslıq elminin müxtəlif istiqamətlərinin – arxeologiya, etnoqrafiya, Vətən tarixi sahələrinin inkişafı üçün də geniş stimul yaratmışdır. Bu inkişaf nəticəsində həm də məhsuldar elmi kadrların fəaliyyətinə geniş imkanlar açılmış, bu elmi məktəbin inkişafında xüsusi mövqeləri olan nüfuzlu alimlər, güclü potensial formalaşmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüs və qayğısı ilə ərsəyə gələn “Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan”, “Qədim Şərur”, “Naxçıvan və naxçıvanlılar”, “Nuh Peyğəmbər. Dünya tufanı və Naxçıvan”, “Naxçıvanın epiqrafik abidələri” və digər əsərlər Naxçıvan tarixşünaslıq məktəbinin səciyyəvi cəhətlərini özündə təcəssüm etdirən böyük elmi əsərlərdir. Ali Məclis Sədrinin Sərəncamı ilə hazırlanan “Naxçıvan tarixi” çoxcildliyi də muxtar respublikada elm sahəsində aparılan dövlət siyasətinin konkret bəhrələri kimi qiymətləndirilir. Bundan başqa, naxçıvanlı alimlərin Amerika Birləşmiş Ştatları, Fransa, Türkiyə və digər ölkələrdən olan elm adamları ilə birgə apardıqları ciddi tədqiqatlar nəticəsində Naxçıvanda ilkin yaşayış və şəhərsalma, Duzdağ mədəniyyətinin aşkarlanması, dünyanın ən qədim duzçıxarma sənəti və mədəninin məhz Naxçıvanda olması faktı təsdiqini tapmışdır. Bu, diyarın qədim tarixə malik olduğunu bir daha sübut edir.

Müstəqillik illərində Naxçıvan ədəbiyyatşünaslıq elmi məktəbi ardıcıl inkişaf etmiş, görkəmli akademik İsa Həbibbəylinin bilavasitə rəhbərliyi altında burada çoxsaylı ədəbiyyatşünas alimlər yetişmişdir. Bu elmi məktəb özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə fərqləndiyi kimi, nailiyyətləri ilə də muxtar respublikamıza, ümumilikdə, ölkəmizə öz töhfələrini verməkdədir. Özünün mövzu əhatəsi, elmi-tədqiqat üslubu, təhlil və tədqiq tərzi və digər özünəxas cəhətləri ilə, ən başlıcası, milli ideologiyaya sədaqəti, bu ideologiyanı zənginləşdirməsi ilə fərqlənən bu məktəb artıq kifayət qədər öz sözünü demişdir. Naxçıvanın ən qədim dövrlərdən üzübəri ədəbi mühitinin, görkəmli şəxsiyyətlərinin, ədəbi prosesinin inkişaf ənənələrinin öyrənilməsi nəticəsində yeni faktlarla zəngin elmi əsərlər ərsəyə gəlmişdir.

Naxçıvanda bu inkişafdan bəhrələnən folklorşünaslıq, dilçilik, sənətşünaslıq və başqa elm sahələri də diqqəti cəlb edir. Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri yeni müstəvidə, müasir tələblər səviyyəsində məhz bu dövrdə öyrənilmiş, yeni materiallar toplanmış, daha təkmil dialekt sözlüyü hazırlanmışdır. Elə Naxçıvanla bağlı yer-yurd adlarının, Naxçıvan əhalisinin etnogenezinin öyrənilməsi də bu dövrə təsadüf edir. Naxçıvan və bu diyara məxsus digər yer adlarının etimologiyası, habelə digər elmi faktlar sayəsində alimlərin Nuh Peyğəmbərin dünya tufanı zamanı məhz Naxçıvanda quruya enməsi və burada məskunlaşması barədə fikirləri maraqlı faktlarla zənginləşmişdir. Aparılan tədqiqatların nəticəsini elmi ictimaiyyətə təqdim edən beynəlxalq konfransların, simpoziumların keçirilməsi, çoxsaylı monoqrafiya və tədqiqat əsərlərinin nəşri də bölmədəki elmi və təşkilati işlərin uğurlarından xəbər verir. Qədim diyarımızın zəngin folklor mühiti ilə bağlı yeni elmi tədqiqatların aparılmasını, “Naxçıvan folklor antologiyası” kitabının üç cilddə nəşr edilməsini, Naxçıvan folklor mühitini tədqiq və təhlil edən digər çoxsaylı elmi əsərləri də folklorşünaslıq sahəsində əldə edilən nailiyyətlər kimi diqqətə çatdırmaq olar.

Belə ciddi elmi nailiyyətlərin əldə edilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı dövlət sənədləri, verdiyi tövsiyə və tapşırıqlar əsaslı rol oynamışdır. Məhz elmin inkişafına hədəflənmiş bu məqsədyönlü siyasətin həyata keçirilməsi sayəsində Naxçıvanda ilkin yaşayış və mədəniyyətin tarixinə dair ciddi nəticələr əldə edilmiş, tarixi abidə qeydə alınmış və pasportlaşdırılmış, Nematullah Naxçıvani kimi həyatı və fəaliyyəti indiyədək öyrənilməmiş tarixi şəxsiyyətlər qiymətli yaradıcılıq mirasları ilə geniş elmi ictimai müstəviyə çıxarılmış, xalq yaradıcılığının müxtəlif sahələrinin öyrənilməsi, tədqiqi, təbliği və nəşri məsələləri uğurla həyata keçirilmişdir. Naxçıvan yallılarının nüfuzlu beynəlxalq təşkilat olan YUNESKO səviyyəsində dünyanın Qeyri-maddi mədəni irs və təcili qorunma siyahısına daxil edilməsi də məhz düzgün elmi araşdırmaların və aparılan müdrik, uğurlu siyasətin nəticəsidir.

Naxçıvanda elmlə iqtisadiyyatın, nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi də uğurlu və nümunəvi bir şəkildə həyata keçirilir. Bölmənin elmi inkişafda xüsusi rol oynayan, elmi-texniki imkanları və coğrafi mövqeyinin unikallığı ilə tanınan Batabat Astrofizika Rəsədxanası Naxçıvanın elmi-mədəni abidəsi olmaqla bərabər, həm də elmin inkişafına verdiyi töhfələrə görə xüsusi əhəmiyyət kəsb edir. AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları müasir cihaz və avadanlıqlarla təchiz olunmuşdur. Bölmənin tərkibində ən müasir texnologiyaya əsaslanan Seysmoloji Mərkəz qurulmuşdur. Elmi-tədqiqat və ali təhsil müəssisələrinin tədqiqatları üçün müasir təchizata malik şöbə və laboratoriyalar yaradılmışdır. Taxılçılığın inkişafı sahəsində AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda taxıl sortları ilə bağlı aparılan təcrübə və tədqiqatların nəticələrinin istehsalata tətbiq edilməsi uğurlu elmi-təcrübi fəaliyyətə bir nümunədir. Muxtar respublikada ərzaq ehtiyatının yaradılması, taxılçılığın, meyvəçilik və tərəvəzçiliyin inkişafı ilə əlaqədar uğurlu elmi təcrübələr əldə edilməkdədir. Naxçıvanda Duzdağ Fizioterapiya Mərkəzinin yaradılması, Darıdağ Arsenli Su Müalicəxanasının fəaliyyəti, Şorsu palçığının müalicəvi əhəmiyyətinin öyrənilməsi və tibdə tətbiqi kimi çoxsaylı faktlar elmlə istehsalatın qarşılıqlı inkişafı nəticəsində əldə olunan uğurlardır.

Naxçıvanda formalaşan elmi məktəblərin nailiyyətləri “Naxçıvan abidələri ensiklopediyası” (Azərbaycan və ingilis dillərində), “Naxçıvan Ensiklopediyası” (iki cilddə), “Naxçıvanın tarixi atlası”, “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvanın folklor antologiyası” (üç cilddə), “Azərbaycan xalçaları: Naxçıvan qrupu”, “Naxçıvanın teatr salnaməsi”, Naxçıvanın flora və faunasına aid “Qırmızı kitab”, “Naxçıvanın arxeoloji abidələri”, “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” (iki cilddə), “Dədə Qorqud yurdu Naxçıvan” tarixi-etnoqrafik atlası, “Azərbaycan Respublikası şənlik-mərasim nəğmələri”, “Naxçıvan ağızları” (türk dilində), “Naxçıvan tarixi” çoxcildliyi və başqa qiymətli əsərlər şəklində elmi ictimaiyyətə təqdim olunur.

Onu da xüsusi qeyd etmək lazımdır ki, 2014-cü il 4 sentyabr tarixli Fərmanla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi elmin və təhsilin davamlı inkişafının muxtar respublika rəhbəri tərəfindən daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq etdi. Bu gündək fondun təşkilatçılığı ilə onlarla beynəlxalq və yerli səviyyəli konfranslar, seminarlar, dəyirmi masalar və disputlar keçirilib, elmi innovasiyaların, layihələrin dəstəklənməsi işinə diqqət artırılıb. Təkcə ötən il fond tərəfindən 30-a yaxın müxtəlif əsər nəşr etdirilib. Müstəsna elmi dəyərə malik həmin nəşrlər bir daha göstərir ki, bu gün qədim köklərə malik Naxçıvanla bağlı müxtəlif istiqamətlərdə elmi tədqiqatlar aparılması davamlı xarakter alıb. Ulu öndər Heydər Əliyev siyasi kursunu özünün fəaliyyət proqramı elan edən Ali Məclisin Sədri davamlı olaraq Naxçıvanda elmin, təhsilin inkişafı qayğısına qalır. Qısa zaman kəsiyində bu cür vüsətli inkişaf Ali Məclis Sədrinin uzaqgörən qərarları, xalqa bağlılığı, dövlətçiliyə sədaqəti nəticəsində əldə olunmuşdur. Ötən il Naxçıvanda Elmin İnkişafı Fondunun yaradılması muxtar respublikada elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsinə mühüm töhfədir. Fondun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: ***“Elm inkişaf etmədən ölkələrin inkişafını təmin etmək mümkün deyil. Ona görə də muxtar respublikada elmin inkişafı sahəsində mühüm işlər görülmüş, elmi potensial formalaşdırılmışdır”.*** Heç şübhəsiz ki, bu mühüm məramla yaradılmış Elmin İnkişafı Fondu Naxçıvanın tarixi, mədəniyyəti və digər sahələrini öyrənən elmi layihələrin həyata keçirilməsinə töhfələrini verməklə böyük uğurlara imza atacaqdır. İlk layihə olaraq Ali Məclis Sədrinin Sərəncamı ilə Naxçıvanda ən çətin ictimai-siyasi dövrdə fəaliyyət göstərmiş Araz-Türk Respublikasının tədqiqi ilə bağlı bir layihənin qəbul edilməsi də özlüyündə rəmzi məna daşıyır.

Son 30 ilə yaxın bir dövr ərzində Naxçıvan Muxtar Respublikasında elmin inkişaf tarixinə nəzər saldıqda bir daha məlum olur ki, müstəqillik illəri bu inkişafın ən qabarıq şəkildə təzahür etdiyi bir mərhələdir. İftixarla deyə bilərik ki, hazırda AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 nəfərlik professor-müəllim heyəti elmi-tədqiqat işləri sahəsində çoxsaylı uğurlara imza atıblar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında da dərc edilir. Bütün bu uğurların əsasında elmin inkişafı, elmi-tədqiqat işlərinin səmərəliliyi məqsədilə yaradılan maddi-texniki baza, müasir elm, texnika və texnologiyanın ən son nailiyyətlərinin geniş tətbiqi dayanır. Qazanılan bu uğurlar isə məhz ulu öndərin siyasi kursunun uğurla davam etdirilməsinin bəhrələridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 mart tarixli Sərəncamına əsasən 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi milli elmimizin növbəti inkişafı üçün mühüm stimul olmuşdur. Dövlət başçısı təntənəli yubiley tədbirindəki çıxışında demişdir: ***“Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır”.*** Bu baxımdan hər zaman yüksək dövlət qayğısı ilə əhatələnən Azərbaycan elminin inkişafına 2016-cı ildə qəbul edilən “Elm haqqında” Qanun da hüquqi-siyasi təminat yaratmışdır. 2014 və 2016-cı illərdə elmin nailiyyətlərini sərgiləyən, elmi festivalların təşkil edilməsi elm və ictimaiyyət arasında əlaqələrin təminatına geniş imkanlar açmışdır.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-nin “Elm Günü” kimi təsis edilməsini də ictimaiyyət və çoxsaylı ziyalılar ölkəmizdə elmə göstərilən qayğının təzahürü kimi minnətdarlıqla qarşılayır. Muxtar respublika rəhbərinin elm adamlarına göstərdiyi diqqət və qayğı, doğma diyarımızdakı elmi mühit də elmin, milli ziyalılığın inkişafına, elmi potensialın artmasına öz dəyərli töhfələrini verməkdədir.***

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent***

***Azərbaycan xalqı çoxəsrlik tarixə malikdir. Bu tarixdə milli soy-kökümüzdən qaynaqlanaraq fərdi xüsusiyyətimizə çevrilən elə adət-ənənələrimiz vardır ki, həmin adətlərlə azərbaycanlı olduğumuz sübut olunur. Və əsrlərdir, yaşadılaraq bu günümüzədək gəlib çıxan adət-ənənələrimiz müasir dövrümüzdə xalqımızın tarixi kökünü bir daha açıqlayır, bu millətin tarix qədər yaşı olduğunu təsdiqləyir.***

*Yurdumuza Novruz gəlir, yaz gəlir*

# Xalqımızın qədim bayramı NOVRUZ

70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar. Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu öndərimiz deyirdi: ***"Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".***



Artıq neçə illərdir ki, Novruz bayramı çox çətinliklə əldə etdiyimiz müstəqillik şəraitində qarşılanır. Respublikamızın hər yeri – küçə və meydanları, parkları qədim milli bayramımız üçün bəzədilir. Hər kəs ən sevimli bayramı olan Novruzu ürəyincə qeyd edir. Oxuyan, oynayan, yallı gedən, milli oyunlarımızı, mərasimlərimizi, adətlərimizi nümayiş etdirən hər kəslə yaşanır, yaşadılır qədim bayramımız Novruz. Yaşadıla-yaşadıla dünəndən bu günə, bu gündən sabaha – yeni nəsillərə ərməğan edilir.

### Novruz barədə nə bilirik

Novruz xalqımızın böyük mərasimlərindən biridir. Bu mərasim hər il mart ayının 20-21-də keçirilir. Şərq xalqlarının erkən əkinçilik, məhsul bolluğu etiqadları ilə bağlı bu mərasim hələ qədim zamanlardan el arasında böyük bayram kimi qeyd edilib. Xalq bu bayrama hazırlığa Novruza 40 gün qalmışdan başlayardı. Əvvəl çərşənbəyə qədərki 10 gündə hər yerdə təmizlik işləri aparılar, sayaçılar həyətbəhəyət gəzib dölün başlanması ərəfəsində sayadan pay alıb, pay verərdilər.

Novruza qədərki birinci, ikinci, üçüncü və dördüncü çərşənbələrin də özünəməxsus şənliyi, ayini, etiqadı olardı. Axır çərşənbədə isə Novruz şənlikləri daha böyük təntənə ilə qeyd edilər, bir-birindən rəngarəng nəğmələr oxunar, ayinlər icra edilər, tamaşalar, oyunlar göstərilərdi. Bu çərşənbələrin də öz adı, adəti var. Birinci çərşənbə "Əzəl çərşənbə"dir. Buna "Yalançı çərşənbə" də deyərlər. Həmin çərşənbədə yandırılan tonqalın külünü göyə sovurub ucadan söyləyərlər: "Kiçik çillənin gözünə kül ələyirik!" İkinci çərşənbə "Muştuluqçu (müjdə verən) çərşənbə"dir. Bu çərşənbədə hamı bir-birinə muştuluq verər ki, çillə tamam-kamal sovuşub, gedib. Sonra "Gül" çərşənbə gəlir. Bu çərşənbədə təmizlik eləmək, ev-eşiyi, paltar-palazı çırpıb, silib "gülə döndərmək" qaydadı. Qalır dördüncü – bayramdan qabaqkı çərşənbə. Həmin çərşənbə "İlaxır çərşənbə" sayılır. Ulularımız həftənin günlərini uğuruna, sayasına görə sınaqdan çıxarıb bir parasını ağır, bir parasını da yüngül sayıblar. Həmin hesabla ən ağır gün çərşənbə axşamı, ən yüngül, sayalı gün cümə axşamı ilə cümədir. Ağır olduğundan çərşənbə axşamına baba-nənələrimiz "duz günü" deyərdilər. Həmin gün ev binəsi qoymaq, əkinə-biçinə başlamaq, toy-düyün eləmək məsləhət bilinməyib. İşin binəsini cümədə qoymaq uğurlu sayılıb. Çərşənbə axşamı ağır gün sayıldığından ilin axırıncı həftəsinin həmin günündə tonqal qalayıb, odun üstündən atıla-atıla cəmi ağrı-acıları tökər, yeddi cür şirin nemət dadıb, nəhs gündən qurtular, sonra da xoş ovqatla o biri günlərə qədəm basıb Novruzu qarşılayarlar. Deyərlər ki, nə qədər ağrı-acımız, qada-balamız varsa, hamısını tökdük axır çərşənbə tonqalının üstünə.



Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Novruz yazın gəlişinə, torpağı yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır.

Daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların istiləşməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bütün bu ilkin, ibtidai sənət nümunələri isə sonralar Novruz ətrafında cəmləşmişdir.

Novruz mərasimini bəziləri yanlış olaraq Zərdüştlüklə, digərləri isə İslam dini ilə bağlamağa cəhd göstərmişlər. Lakin bütün cidd-cəhdlərə baxmayaraq, Novruz mərasimlərində dinlərdən qabaqkı təsəvvürlər tam aydınlığı ilə əks olunmaqdadır. Bu bayramın qədim insanların bolluq, bərəkət, əmək, əkinçilik və məişət həyatı ilə bağlı yarandığını əks etdirən solmaz şəfəqlər zaman keçdikcə daha qüdrətlə şölələnməkdədir.

### Novruzu nə vaxtdan qeyd ediblər

Qədim bir türk əsatirində bu suala cavab tapmaq olar: Oğuz oğlu zağada yaşayanda qışdan yaman qorxardı. Ona görə də ilin üç fəslində qışa tədarük görər, dünyanın naz-nemətini zağaya yığıb gətirərdi. Bir il qış uzun çəkdi, onun azuqəsi qurtardı. Çarəsiz qalan Oğuz oğlu Böyük çillənin otuzuncu günü zağadan bayıra çıxdı ki, yeməyə bir şey tapıb gətirsin. Nə qədər gəzdi, dolandı, heç nə tapmadı. Saqqalı buz bağladı, əli-ayağı dondu. Kor-peşman evə qayıdanda yolda bir qurd balasına rast gəldi.

– Oğuz oğlu, bu qarda-boranda haradan gəlirsən?

Oğuz oğlu başına gələn əhvalatı danışdı. İlin aylarından gileyləndi. Dedi ki, elə ay var yaxşı dolanırıq, elə ay var acından qırılırıq. Ayları təriflədi, ayları yamanladı.

Qurd balası dedi:

– Ey Oğuz oğlu, qarşıdakı yolayrıcında səni bir sürü qoyun, bir qucaq sünbül, bir cəhrə, bir də əl dəyirmanı gözləyir. Onları alıb zağana aparарsan. Qoyunu kasıb ətini yeyər, yunundan cəhrədə ip əyirər, özünə paltar toxuyarsan, dərisini əyninə geyinər, sünbülün dənini də əl dəyirmanında çəkər, undan çörək bişirərsən, yaza çıxarsan. Ancaq sənə verdiyim əmanətlərdən gərək muğayat olasan. Sünbülü və qoyunu özün artırarsan. Quzuları əlinin içində saxlayıb böyüdərsən. Sünbülün dənini yerə səpib, onu alnının təri ilə suvararsan. Dediklərimə əməl eləyə bilməsən, yaşamaq sənin üçün çətin olacaq.

Oğuz oğlu yolayrıcına gəldi. Qurd balasının dediklərini götürüb zağaya gətirdi. Qışı kefi kök dolandı. Yazda sürünü dağlara yaydı, sünbülün dənini torpağa səpdi, gecə-gündüz sürülərin, taxıl zəmisinin qulluğunda dayandı. Oğuz oğluna bir bolluq üz verdi ki, gəl görəsən.



*"Novruz gəlir" Rəssam Cavid İsmayılov*

Deyirlər, oğuzlar elə o vaxtdan həmin günü ən əziz bayramlardan hesab eləmişlər. Həyatında yenilik başlandığından, o günə yeni gün adını verən Oğuz oğlu onu hər yaz bayram etmişdir. O gündən Novruz xalq arasında firavan yaşayışa, bolluğa, bərəkətə, yaradıcı əməyə çağırış rəmzinə çevrilmişdir.

Elə o gündən xalq bayrama 40 gün qalmış hazırlıq, təmizlik işlərinə başlayıb, Novruzqabağı nəğmələrini yaradıb. Bayramın bütün etnoqrafik cizgiləri Novruz nəğmələrində öz əksini tapıb. "Səməni", "A yel baba, yel baba", "İldə göyərdərəm səni", "Qodu-qodu", "Yağış gəlir" nəğmələrində Novruzun bütün detalları əks olunur.

Xalq özünün həyat, sağlamlıq, təmizlik, əmək vərdişləri ilə bağlı bir çox ayin, etiqad və mərasimlərini Novruzla bağlayıb, beləliklə də, onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olub. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qız-gəlinlər təzə çəkmə, al-əlvan don geyinərlər.

Novruz adətlərində ulu babalarımızın ən müdrik dünyagörüşü, humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir. Bu nümunələrdə təmizliyin əhəmiyyəti, onun təbliği, yaxşılıq, xeyirxahlıq, Vətəni sevmək kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər əks olunub.

### Novruz müasir dövrümüzdə

Novruz – bu, böyük bir tarixdir. Yaşanan, yaşadılan və yaşadılacaq bir tarix. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"Necə ki, ötən nəsillər bu bayramı adətləri ilə yaşadıb, bizə təhvil vermişlər, bizlərin – müasir dövrün insanlarının da vəzifəsi ondan ibarətdir ki, bu adətləri olduğu kimi gələcək nəsillərə çatdıraq. Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir. Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyəti ilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır".***

Xalqımızın qədim milli bayramı olan Novruzun müasir dövrümüzdə bütün adət-ənənələri ilə yadda qalması, davam etdirilməsi bu bayramın azərbaycanlılar üçün tarixi bir bayram olduğunu sübut edir. Qədim tarixi mənbələrdən, Novruzla bağlı tədqiqatçı alimlərin əsərlərindən oxuduğumuz yazılarda bu bayramın qədim dövrlərdə necə başlandığı, davam etdirildiyi, hansı adətləri özündə əks etdirdiyi ilə tanış olduqca və bütün bunlara müasir dövrümüzdə də şahid olan bizlərdə belə bir təəssürat yaranır ki, xalqımız öz tarixi keçmişinə, adət-ənənələrinə, mentalitetinə həmişə hörmətlə yanaşmış, ona sadiq qalmış və yüksək dəyər vermişdir.

Bu gün də Novruza qədər təbiətin dörd ünsürü – su, torpaq, yel və odla bağlı çərşənbələrin qeyd olunmasını, bütün evlərdə, bağ-bağatlarda "külə-külə" adəti ilə təmizlik işlərinin aparılmasını, Novruza 15 gün qalmış səməni cücərdilməsini, ilin axır çərşənbəsində tonqal çatıb, el-elatın həmin tonqalın başına yığışaraq deyib-gülməsini və 20-21 martda Novruzun – yeni günün həyatımıza daxil olmasının təntənəli şəkildə qeyd edilməsini, əsrlər öncəki adət-ənənələrimizin olduğu kimi yaşadılıb, bu günə qədər çatdırılmasını böyük mənəvi sərvətimiz kimi dəyərləndirmək olar. Dövlətimizin başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə, nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq".***

*Qədəmlərin mübarək, ulu Novruz! Qoy bu Novruz həyatımıza, elimizə-obamıza xoşbəxtlik, səadət, hər bir ailəyə sevinc dolu günlər, bol ruzi, ölkəmizə sülh, əmin-amanlıq, davamlı inkişaf gətirsin.*

**Mətanət MƏMMƏDOVA**

# Etnik-mədəni dəyərlərimiz: ritualdan ənənəyə

## *Muxtar respublikamıza məxsus nadir mərasim folklor örnəyi "XANBƏZƏMƏ"*

***Novruz türk xalqlarına məxsus qədim mədəni dəyər, arxaik rituallarla süslənmiş mədəniyyət hadisəsidir. Yeni həyat, yeni ruh Novruzun əsas mahiyyətini təşkil etdiyi üçün xalq yeni həyat bəxş edən təbiəti təqdir etmək, alqışlamaq məqsədilə müxtəlif ritualların icrasını vacib saymışdır. Əziz milli bayramımız olan Novruzda icra edilən ritualların çoxu qışın yola salınması, yazın qarşılanması istəyini əks etdirir. Qış xalq təsəvvüründə donan, yatan, hətta ölən təbiət kimi xarakterizə olunur. Onu oyatmaq üçün etnik mədəniyyətdə yardımçı xarakterli ayin-ritualların icrası mütləq sayılırdı. Bu ritualların çox hissəsi zaman-zaman unudulmuş, bəziləri isə inkişaf etdirilərək və müasir elementlərlə süslənərək dövrümüzə qədər gəlib çıxmışdır ki, onlardan biri də "Xanbəzəmə" mərasimidir.***

"Xanbəzəmə" Azərbaycanın bəzi regionlarında da ara-sıra icra olunmasına baxmayaraq, bütünlüklə Naxçıvan Muxtar Respublikasının mərasim folkloruna aid mədəniyyət faktıdır. Əsas "məskəni" isə Ordubad rayonudur. Bu mərasim hazırda Ordubad şəhəri ilə yanaşı, Nüsnüs, Vənənd və Tivi kəndlərində də icra olunmaqdadır. Martın 21, 22, 23-də Ordubad şəhərinin Sərşəhər və Mingis meydanlarında "Xanbəzəmə" mərasimi kütləvi şəkildə keçirilir. Bu mərasimin Nüsnüsdə 3 gün, Vənənd və Tivi kəndlərində isə yalnız 1 gün icrası müşahidə olunur. Qeyd etdiyimiz kimi, Ordubad şəhərinin Sərşəhər deyilən meydanında "xan" bəzədilir. Bunun üçün Ordubad şəhər sakinlərindən xarici görünüşcə ciddi, qaraqabaq biri seçilir. "Xan" seçimində də müəyyən tələblərə əməl etmək mütləqdir. Belə ki, xalq arasında qəbul olunmuş ölçülər var ki, seçilən "xan" onlara uyğun gəlməli, hər sözə məhəl qoymayan, hər məqamda danışmayan, ölçülü hərəkətlərə malik olmalıdır. Heç olmazsa, ən azı bir dəfə gülmək həmin şəxsin "xanlıq" fəaliyyətindən kənara çıxması hesab edilirdi. Müxtəlif vaxtlarda "xan" seçilmiş belə şəxslər indi də tez-tez xatırlanır. Ordubadın Nüsnüs kəndində yaşamış Nəcəf Nəcəfov, Nurəddin Əliyev, Səttar Cabbarov, Əhməd Davudov, Məhəmməd Hüseynov öz missiyalarını hər Novruzda məsuliyyətlə icra edən "xan"lar olmuşlar. O cümlədən mərasimin daha təntənəli




şəkildə keçirildiyi Ordubad şəhərində müxtəlif zamanların öz "xan"ları

Ardı 4-cü səhifədə

olmuşdur. Lakin ciddiliyi ilə daha çox yadda qalan, "ən ciddi xan" statusuna layiq Məhəmməd Baxşıyev adlı şəxs olub. Hətta onun ciddiliyi haqqında indi də xalq yaddaşında tez-tez xatırlanan rəvayət yaşayır: "Məhəmməd Baxşıyev olduqca ciddi və qaraqabaq, həm də çox təmkinli olduğundan bu "xan"ı güldürmək mümkün deyildi. Bir dəfə Novruz bayramının üçüncü günündə camaat gəlir Məhəmmədin evinə. Həyat yoldaşından soruşurlar ki, ay bacı, nə edirik, bu gülmür ki, gülmür. Qadın cavab verir ki, ay sizə qurban olum, mən 20 ildir, bununla bir evdəyəm, bunun gülən üzünü görmədim, siz necə görəcəksiniz?!" Hazırda xan "tituluna" Ordubad şəhər sakini, elə "köhnə xan" Məhəmməd Baxşıyevin oğlu Fərhad "layiq görülüb".



Xanın gülməməsi ilkin inanc və etiqad sistemlərindən olan animizmin qalıqları kimi qəbul oluna bilər. Belə ki, qış fəslində təbiətin donması, dayanması, ölməsi qış ruhunun təbiətə təsiri ilə bağlıdır. Qədim insanın mifoloji təfəkküründə insan ətrafında nə varsa, onları canlı kimi qəbul edirdi. Ona görə də qışdakı təbiəti donmuş, ölmüş, susqun hesab edən qədim insan onu simvollaşdırmış, daha sonra isə obrazlaşdırmışdır. Susqun, acıqlı qış haqqındakı mifoloji düşüncədən qaynaqlanan "xan"ın seçimində də məhz dinib-danışmayan, ətrafdakı şənlikdən zövq almayan, qaraqabaq insan tipinə üstünlük verilir. Bu da öz məqamında, təbiəti dondurub, "öldürüb" sakit, qaraqabaq dayanan qış fəslinin xarakterinin ifadəsidir.

Beləliklə, ciddi, qaraqabaq şəxsi xan kimi bəzəyib, taxt-taca əyləşdirirlər. "Xan" meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil onu qoruyur, iki nəfər isə yelpiklə yelləyir. Digər insanlar "xan"ın qarşısında çalır, oxuyur, oynayır. Təlxəklər "xan"ı güldürməyə çalışırlar. Oyunun şərtinə əsasən "xan" təlxəklərin hərəkətlərinə, ümumiyyətlə, gülməməlidir. Əgər gülərsə, camaat onu suya basar. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə, qaçmayan, "xan" rolunu icra edən şəxs xalq tərəfindən mükafatlandırılır. "Xanbəzəmə" mərasimindən bəhs edən folklorşünas Əli Şamil də qeyd edir ki, xalq tərəfindən bəzənmiş "xan"ın gülməsi qadağandır.

Susub danışmamaq tələb olunan obraza "Danatma" mərasimində də rast gəlinir. Folklorşünas Muxtar Kazımoğlu "xan"ın gülməməsi, lal-dinməz durması ilə "Danatma" mərasimindəki qaradinməz obrazının xüsusiyyəti arasındakı eyniliyi belə xarakterizə edir: "...Xanbəzəmədə xanın gülməyinə, "Danatma"da isə qaradinməzin danışmağına yasaq qoyulmasını müxtəlif cür izah etmək olar... xanın gülməməsi və qaradinməzin danışmaması ciddi olmağın, özünü əsl hökm sahibi kimi apara bilməyin işarəsidir". Onu da əlavə edək ki, "Danatma"da Novruz bayramında icra olunan mərasimdir. Azərbaycanın digər əraziləri kimi, muxtar respublikamızda da bu mərasim icra olunur. Mərasim zamanı oyunun başçısı iki nəfər qızı qaradinməz edib, axar sudan pak su gətirməyə göndərir. Bu sudan "Vəsfi-hal" oxuyanda istifadə edirlər. Qaradinməz su gətirməyə gedərkən bir kəlmə belə, danışmamalıdır. Əgər o danışarsa, su pak sayılmır, ona iynə salmaq, üzük oynatmaq olmaz. Qaradinməz pak suyu gətirib başçıya verdikdən sonra qaradinməzlikdən azad olur. Ordubadda bu mərasim İlaxır çərşənbələrin sonuncusu olan Od çərşənbəsində icra edilir.

"Xanbəzəmə" mərasimi zamanı müxtəlif oyunlar da təqdim olunur. Yumurta ilə bağlı Novruz oyunları mərasimin sevilən mərhələsidir. Folklorşünas alim Muxtar Kazımoğlu Ordubadda Novruz bayramının keçirilməsi haqqında yazarkən bu oyunların böyük maraq doğurduğunu qeyd edir: "... Novruz bayramında yaşına baxmayaraq insanlar müxtəlif yumurta oyunları oynayardılar. Yumurta döyüşdürmə bir neçə cür olardı. Tək-tək döyüşdürəndə bəzən dişə vurub yumurtanın bərkliyini-boşluğunu yoxlayardılar. Buna "dadışmaq" deyərdilər. Sonra kimin yumurtanı əlində və necə saxlayacağını, kimin isə üstdən və necə vuracağını razılaşardılar. Kimin əlindəki yumurta qırılardısa, o, uduzur və sınıq yumurtanı qalib gələnə verirdi. Başqa bir halda, 4-5 nəfər yumurtaları bir uşağın ətəyinə qoyardı. Yumurtalar qarışardı. Bəxtəbəxt hərə bir yumurta götürüb döyüşdürərdi. Kim əlindəki yumurta ilə digər yumurtaları çox qırardısa, o, qalib idi. Buna "ətəyə atmaq" deyərdilər. Yumurta çox olduqda onları sıra ilə düzərlər və bir tərəfdən götürüb döyüşdürərdilər. Axırıncı yumurtanı sındıran sıradakı yumurtaların hamısını udmuş olardı. Buna "qatara qoymaq" deyərdilər. Üç sınıq yumurtanı bir bütöv yumurtaya dəyişərdilər. "Hol qoymaq" da maraqlı oyun idi. Nisbətən maili yer seçər, yumurtaları sıra ilə düzüb qabağına çöp qoyardılar. Çöpü götürdükdə yumurtalar dığırlanardı. Kimin yumurtası daha uzağa dığırlansaydı, o, qalib sayılar və sıradakı yumurtaların hamısını udmuş olardı".

"Xanbəzəmə" mərasimində müxtəlif musiqi alətlərinin müşayiəti ilə icra olunan idman növlərinin, əsasən, pəhləvanların güləşi diqqət çəkməkdədir. Bu baxımdan ərazidən toplanmış bir folklor mətnində də deyilir: "Novruz bayramında zurnaçalanlar da iştirak edərdilər. Zurnanın sədaları altında qoca kişilərdən salardılar güləşə. Güləş zamanı biri çəkilərdi o başa, biri bu başa. Bir-biri ilə deyişərdilər:

*Gülüstan üstünə,*
*Gün düşüb bostan üstünə.*
*Gör nə günə qalmışam,*
*A Kəlbəli Qulu,*
*Tülkü gəlib aslan üstünə.*



Qarşı tərəfin cavabı:

*Kərbəlada var ələmim,*
*Çərxi-fələkdəndir mənim qələmim.*
*Əbülfəzl Abbasdı mənim köməyim,*
*Qüdrətin varsa, gəl meydanə".*

Mərasimin özəlliyindən biri də yallı rəqsidir. Əsasən, oyun elementləri ilə cilalanmış yallı rəqs növünün icrası mərasimi daha da canlandırır. Yalnız Ordubad ərazisinə aid olan, yaşlı nəslin "İlanvarı" adlandırdığı rəqs çox maraqlı icra tərzi ilə diqqət çəkməkdədir. Qeyd etdiyimiz kimi, "İlanvarı" yallısında bəzi oyun elementləri görünməkdədir. Oyundakı bu xüsusiyyətlərə diqqət edək: Hər biri yeddi-səkkiz gəncdən ibarət iki sıra düzülür. Hər iki sıradakı ifaçılar qollarını bir-birinin çiyinlərinə keçirərək yallıya başlayırlar. Qrupların başında yallıbaşı durur. O, əlində çubuq saxlayaraq oyun zamanı sıranı pozanları cəzalandırır. Bu çubuğa "vən" (qabığı ağ, sərt meşə ağacı) deyilir. Beləcə, oyun başlanır. 1-ci yallı qrupu əyilir, 2-ci yallı qrupunun üzvləri həmin yallı dəstəsi iştirakçılarının arasından keçərkən qrup üzvlərinin cibinə əl ataraq pul, daraq, dəsmal və ya cibdə olan hər hansı bir əşyanı götürməyə çalışırlar. Sonda "oğurlananlar" ortaya qoyulur. Kimin daha bahalı əşya götürdüyü müəyyən olunur. Əşyanı götürən sahibindən "Qənimo" yallısını təkbaşına oynamağı tələb edir. Yallını oynadığı təqdirdə əşyanı sahibinə qaytarır, əks halda onu ərazidə yaşayan kasıb və ehtiyacı olan kimsəyə bağışlayır. Onu da qeyd edək ki, bu yallı kişilər tərəfindən icra olunur. Qadınlar isə oyunu müşahidə edərək nəticənin necə olacağını izləyir, hansı yallı qrupunun qələbə çalacağını öz aralarında müzakirə edirlər.

Digər yallıya diqqət etsək, görərik ki, bu yallı növü də oyun ünsürləri ilə cilalanmışdır: 7-8 nəfərlik 2 qrup təşkil olunur. Qruplar bir-birilə pantomim hərəkətlərlə deyişirlər. Birinci qrupun 1-ci oyunçusu cibindən hansı əşyanı çıxarsa, o biri qrupdan da qarşılıq olaraq mütləq həmin əşya göstərilməlidir. 2-ci oyunçu, məsələn, cibindən nə çıxararsa, o biri qrup da həmin əşyadan çıxararaq qarşılıq verməlidir. Beləcə, oyun davam edir. Nəticədə, cibindən eyni əşyanı çıxara bilməyən qrup məğlub sayılır.

Vənənd kəndində hazırda bir gün icra olunan bayram əvvəllər üç gün keçirilərdi. Üçüncü gün müxtəlif yaş qrupundan olan insanlar "Təkayaq" və "Cütayaq" yallılarını oynayardılar. Sonra cavanlar güləşərdilər. Güləşdən sonra mərasimə yeni ruh qatmaq üçün cavanlar "Çöpüdüm" yallısı gedərdilər. Hazırda da kənd cavanları bu yallını oynayırlar. Dəstəbaşı əlinə vən çubuğu alar ki, vuranda ağrıtsın. Axırda dəstə başçıları üz-üzə dayanar, hər iki dəstənin üzvləri gəlib onların arasından oynaya-oynaya keçərlər.

*Ümumiyyətlə, Novruz mərasimləri, eləcə də başqa xalqlarda rast gəlinməyən müxtəlif oyunlar türk xalqları üçün mühüm əhəmiyyət kəsb edir. "Xanbəzəmə" də öz orijinallığı, fərqliliyi ilə muxtar respublikamızın mərasim folklor örnəyi olaraq erkən təsəvvürlərin izləri ilə zəngindir. Bu qəbildən olan mərasim tamaşaları onu göstərir ki, qışın bitməsini, yazın bol-bərəkətlə, sevinclə gəlməsini arzulayan xalq fəsillərə, təbiət hadisələrinə qədim təsəvvürlərdən doğan düşüncə ilə yanaşmış, ona etiqad və ehtiramını simvollaşdıraraq ifadə etmişdir.*

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, dosent***




İlıq bir nəfəs evlərimizin pəncərəsini döyüb, qapılarımızı taybatay açıb bizə qonaq olur. Gəlişin həyatımıza yenilik, qəlbimizə sevinc, ətrafa gözəllik, təbiətə canlanma, elimizə şadlıq, Vətənimizə isə xalqımızın sevimli bayramı – Novruzu gətirir. Təbiət min rəngə çalır, al-əlvan naxışlarla bəzənir, quşlar öz yuvalarına qayıdır, hər yerdə onların ürəkləri riqqətə gətirən nəğmələri ruhumuzu oxşayır. Bütün canlıların yuxulayıb yenidən oyanması kimi, bu da təbiətin oyanışıdır ki, baharı bizə gətirir, onun gəlişisə, həyatımıza yeni ahəng verir. Artıq Günəş də sabah erkəndən dağların arxasından böyük sevinclə boylanır, daha hərarətlə şəfəq saçır, işığını ətrafa səpələdikcə çəmənlər yaşıllaşır, güllər-çiçəklər torpaqdan baş qaldırır, ağacların tumurcuqları çırtlayıb çiçək açır, ətraf əlvan rəngə boyanır. Dağlarımızın bəyaz libasını atması, çöllərimizin yaşıllığa qərq olması ilə oyanan, Günəşin qızıl, ilıq şüalarının isitdiyi zərif, xoşətirli novruzgülü, bənövşə, nərgiz, lalə hər yeri gözəlləşdirir. Gözümüzü, könlümüzü oxşayan zərif yarpaqlı, incə saplaqlı çiçəklər, çəmənlərin otu, dağ və dərələrdə bitən min bir dərdin dərmanı olan bitkilər ətir saçır. Onlardan yayılan rayihə təkcə insanları yox, təbiətin möcüzəsi olan arıları da özünə cəlb edir. Bu gözəl yaz günlərində pətəklərdə qərar tutmayan arılar bağçalara pərvazlanıb çiçəkdən-çiçəyə qonur, güllərin-çiçəklərin şirəsini, şəhdini toplayır, sağlamlıq üçün faydalı olan təbii bal hazırlayırlar. Uşaqlar, cavanlar üz tuturlar bənövşə ətirli bağçalara, dərələrə, yamaclara, bulaqların ətrafına... Min bir rəngli, min bir ətirli çiçəklərdən çələng hörməyə. Bənövşədən dəstə tutub analara, bacılara hədiyyə etməyə, bahar nəfəsli şən mahnılar oxumağa. Gecələr səmada ətrafı işıqlandıran, qaranlıqda yaşıl bağ-bağçaları xüsusi sehrlə bizə göstərən Ay da səni müjdələyir, gözəl Bahar.

Nazlı bahar, gəlişinlə təbiətə özünəməxsus bir gözəllik verirsən. Bütün təbiət Günəşə boylanır. Havanın isinməsi ilə dağların başındakı, dərələrin yamacındakı qarı əridib çaylara qatırsan. Bolsulu çaylar, həzin səslə çağlayan bulaqlar xoş zümzüməsi ilə ətrafda sakitlik yaradır. Uzun qışdan sonra insanların əhval-ruhiyyəsinə nikbinlik gəlir, dodaqlara təbəssüm qonur. Yurdumuz səninlə ilhama gəlir. Canlı təbiətin bir parçası olan heyvanlar qış yuxusundan ayılır, köçüb getmiş quşlar geri dönürlər. Ağac budaqlarında, evlərin damında, eyvanlarında şanapipik, qaranquş, hacıleylək, alacəhrə, sərçə kimi quşların gözəl cəh-cəhi, civiltisi – nəğməsi eşidilir. Bir insan üçün hər səhər oxuyan quşların səsinə oyanmaq, göy çəmənlərdə oynayan uşaqların şən gülüş səslərini eşitmək necə də xoşdur.

Bahar torpaqdan boy göstərən nanə, quşəppəyi, qazayağı, cincilim, gicitkən, çiriş, yemlik, yarpız kimi insan sağlamlığı üçün faydalı bitkilərin də nəfəsinə yenilik, təzəlik gətirir. Arabir yağan yağışlar isə onların boy atmasına kömək edir. Analarımız, nənələrimiz təbiətin bizə bəxş etdiyi naz-nemətlərdən toplayır, mətbəximizin ləziz təamlarından olan göyərti qutabı – kətə bişirirlər. Onların müxtəlif göyərtilərdən hazırladıqları çoxçeşidli, dadlı, vitaminlərlə zəngin yeməklər damaq zövqümüzü oxşayır. Təbiətin canlanması ilə birlikdə təbii sərvətimiz, insanların əsas məşğuliyyət sahəsi olan torpaq da əzizlənir, adamlar əkinə başlayırlar. Bununla da bahar gələcək məhsul bolluğunun, firavanlığın göstəricisi kimi həyatımızda mühüm rol oynayır.



Bahar həm də azərbaycanlıların ən müqəddəs bayramı olan Novruzun xəbərçisi, tariximizin, milli yaddaşımızın təzələnməsidir. Təbiətin, həyatın oyanması da məhz elə Novruzdan – "yeni gün"dən başlanır. O Novruz ki gur tonqallar, al-əlvan xonçalar, təbiətin oyanışını öz ruhunda əks edən insanların sevinci, şadlığı ilə səciyyələnir. Xalqımızın 70 illik imperiya "caynağı"ndan qopararaq xilas etdiyi, yasaqdan çıxardığı milli dəyərlərimiz, ənənələrimiz üzərində ucalan bayramımızı hər kəs sevinclə qeyd edir. Yurdumuzun hər yerində, hər bir ailədə bayrama hazırlıq işləri görülür. Süfrələrimiz təbiətin bizə bəxş etdiyi ən ləziz təamlarla bəzədilir. Bahar gözəli səməni isə həm Novruzun simvolu, həm də bolluq-bərəkət rəmzi kimi təbiətin oyanışını və yazın gəlişini özündə təcəssüm etdirir, süfrələrimizi bəzəyir. İlin son çərşənbəsinin axşamı hər bir həyətdə çatılan tonqalların istisi də təbiətə yeni nəfəs verir. İnsan ağırlığını-uğurluğunu od-alova tapşıraraq, saf, çağlayan sulardan keçərək yenidən gəncliyinə qayıdır sanki.

Novruzla birgə həyatımıza, ruhumuza yenilik gəlir, təzə ilin necə keçəcəyi məhz bu bayramla təyin olunur. Qoy təzə ilimiz xoş, firavan keçsin, hər yeni günə olan ümidlərimiz daha canlı, parlaq, bayram niyyətlərimiz hasil olsun.

*Gəlin bir daha deyək: – Yurdumuza, təbiətimizə xoş gəlir Bahar, xoş gəlir Novruz. Biz isə ən əsası ömrümüzün baharını qoruyaq. Qoruyaq ki, Vətənimiz də həmişə bahar təravətli, bahar ovqatlı olsun, üzümüzdən gülüş, şənlik əskik olmasın. Bahar bayramınız mübarək olsun!*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

### *İtmişdir*

Naxçıvan şəhəri, Y.Cabbarov küçəsi 19F-də yaşamış İbrahimov Oktay Ramazan oğlunun adına olan 17474 inventar nömrəli texniki pasport və MH-0047313 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 283